# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

20 (138) 07 noyabr 2019-cu il İctimai-siyasi qəzet


## Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib.***

Qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə Görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır.

Dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu, bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində bu, Böyük Vətən müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.



Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini - neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə - orta hasilat səviyyəsindən iki dəfə yüksək həddə çatmışdı. Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir "xadim"ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın.

Bugünkü iclas məsələsinə qayıdaraq, qeyd etmək istəyirəm ki, əlbəttə, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək. Bir daha xoş gəlmisiniz.

Sonra çıxış edən Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey ŞOYQU dedi:

- Hörmətli cənab Prezident.

Bizimlə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Biz konkret olaraq Qələbənin gələcək yubileyi, ata və babalarımızın igidlikləri ilə bağlı xatirəni ümumi səylərimizlə qoruyub saxlamalı olmağımız barədə Sizin baxışlarınıza şərikik. Əlbəttə, o tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ölkəmiz üçün ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir. Bu gün bir tərəfdən tarixi yenidən yazmaq, digər tərəfdən qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq, bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, Birlik ölkələrindən olan hərbi kontingent Qızıl Meydanda Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər.

Bizim gündəliyə gəldikdə isə o, kifayət qədər genişdir. Əməkdaşlıq bizim birlikdə baxdığımız, təsdiq etdiyimiz planlar üzrə inkişaf edir. Burada xüsusi qeyd etmək istərdim ki, bu gün Rusiya beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazanıb, biz bu təcrübəni həmkarlarımızla bölüşməyə hazırıq. Bu, həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir. Son hadisələr, Soçidə aparılmış danışıqlar, əldə edilmiş razılaşmalar, bizim Prezident və Türkiyə Prezidenti tərəfindən imzalanmış Memorandum çətinliklə həyata keçirilir, lakin görürük ki, bu, sülhün bərqərar olması, Suriyanın suverenliyinin qorunub saxlanması üçün yeganə üsuldur.

AZƏRBAYCAN VETERANI

# Sambo və cüdoçu Hacı Məhəmməd Müslümzadənin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

Respublika Veteranlar Təşkilatının akt zalında samboçu və cüdoçu Hacı Məhəmməd Müslümzadənin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Hacı Məhəmmədin əvvəlki adı Vitali Aruşkin olub. 1949-cu ilin sentyabr ayının 2-də Bakının Keşlə qəsəbəsində anadan olub. Atası Aleksandr Voronejdən, anası Anna xanım isə Saratov vilayətindəndir. 1943-cü ildə müharibənin qızğın çağlarında gənc Aleksandr və Anna Rusiyadan Bakıya pənah gətiriblər. Keşlə qəsəbəsində məskunlaşıblar. Burada da tanış olub ailə qurublar. Üç övladları olub.

Vitali Keşlədə 201 saylı orta məktəbi başa vurduqdan sonra 1969-1974-cü illərdə Bədən Tərbiyəsi və İdman İnstitutunu bitirib. Gənc Vitalinin idmana marağı orta məktəbdən olub. İdmanın sambo və sonralar cüdo növü ilə məşğul olub.





“Lokomotiv” Dəmir Yol İdman klubunda məşqçi işləyib. Sambo və cüdo üzrə isə ordu idman klubunda baş məşqçilik edib. Dəfələrlə Azərbaycan çempionu olub. O illərdə yeniyetmələr arasında Respublika Yığma Komandasının sambo üzrə 1-ci baş məşqçisi Sabir Hüseynov, 2-ci məşqçi isə Vitali Aruşkin idi. Vitali yeniyetmələrin cüdo üzrə Respublika Yığma Komandasının baş məşqçisi vəzifəsini də yerinə yetirirdi. 50 yaşımda islam dinini qəbul edib, namaz qılmağa başlayıb. Vitali Aruşkin islam dinini qəbul etdikdən sonra Məhəmməd adını və Müslümzadə soyadını qəbul edib. Məhəmməd Müslümzadə hər zaman qeyd edir ki, Quran insanları düzlüyə, mərhəmətə, saflığa, dünyanı dərk etməyə çağırır.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov tədbirdə çıxış edərək Məhəmməd Müslümzadənin sambo və cüdo üzrə əldə etdiyi uğurlardan danışıb. Bildirib ki, M.Müslümzadə ömrünün əlli ildən çox hissəsini Azərbaycanda idmanın inkişafına və təbliğinə həsr edib. Cəlil Xəlilov Müslüm Müslümzadənin həyat və fəaliyyətinin gənc nəslə örnək olduğunu diqqətə çatdırıb.



Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, İdman Veteranları İttifaqının sədri Yaşar Məmmədov, “Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondunun prezidenti Sərraf Orucov, veteranlar, idman təşkilatlarının və ictimaiyyətin nümayəndələri çıxışlarında Azərbaycanda dövlətin ölkəmizdə bədən tərbiyəsinin və idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıblar. Qeyd edilib ki, yubilyar ölkəmizdə sambonun və cüdonun inkişafına töhfə verib. Sambo və cüdo üzrə SSRİ İdman ustası, usta cüdoçular arasında dünya çempionu olan M.Müslümzadənin idman nailiyyətləri gənc nəslə örnəkdir.



Sonda çıxış edən yubilyar hər kəsə dərin minnətdarlığını bildirdi.

Respublikamızda veteranlara, idmançılara göstərilən diqqət və qayğıdan danışdı. Belə bir möhtəşəm yubiley tədbiri üçün Respublika Veteranlar Təşkilatına təşəkkür etdi.

Qeyd edək ki, 1961-1972-ci illərdə idmançı, sonrakı dövrdə isə məşqçi və hakim kimi fəaliyyət göstərən M.Müslümzadə 2002-2005-ci illərdə sambo, 2009-2018-ci illərdə cüdo üzrə veteranların dünya və Avropa çempionatlarında qalib və mükafatçı olub. O, 1974-cü ildə sambo, 1976-cı ildə cüdo üzrə SSRİ İdman ustası, 2007-ci ildə Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi adlarına layiq görülüb.

# “Gəncləri veteranlarımızdan, xüsusən də vətəni milləti üçün canından keçən qəhrəmanlarımızdan nümunə götürməyə səsləyirəm.”



Kazımlı Məhərrəm Ələsgər oğlu 1949-cu ilin noyabr ayında anadan olub. 1957-ci ildə Biləsuvar rayonunda orta məktəbə, 1973-cü ildə Bakı Rabitə Texnikumuna daxil olur. Təhsilə hər zaman xüsusi önəm verən M.Kazımlı 1985-1990-cı illər Moskva şəhər Sosial Əmək Münasibətləri Akademiyasında Əməyin idarə olması ixtisası üzrə təhsil alır.

1968-1970-ci illərdə hərbi xidmət keçib. Çexoslovakiyada məhəlli döyüşlərdə iştirak edib, müharibə veteranıdır.

Məhərrəm Kazımlı Biləsuvar rayonunda bir sıra məsul vəzifələrdə çalışmışdır. O, hər zaman vətən, millət amalı ilə yaşayır. Bu gündə dövlətçiliyimiz üçün əlindən gələni əsirgəmir. K.Məhərrəm Xalq deputatları sovetində, Rayon Texnik Birliyində və Rayon meliorasiya idarəsində, rayon həmkarlar komitəsində hüquq şöbəsində və bir sıra məsul vəzifələrdə çalışmışdır. İşlədiyi dövr ərzində gənclərə daim xüsusi önəm vermiş, Vətənpərvər, savadlı gənclərin yetişməsi uğrunda səylərini əsirgəməmişdir.

2000-ci ildən Biləsuvar Rayon Veteranlar Təşkilatının sədridir. Veteranlara göstərdiyi xüsusi diqqət və qayğı ilə respublikamızda ön sıralarda dayanır. Biləsuvar rayon Veteranlar Təşkilatına sədrlik etdiyi dövrdən müntəzəm olaraq məktəblərdə hərbi vətənpərvərlik istiqamətində işlər görür, mütəmadi olaraq veteranlarla gənclərin görüşünü təşkil edir.

Gəncləri vətənpərvər olmağa vətəni sevməyə səsləyirəm. Vətənin hər bir daşı bizim üçün əzizdir. Bizə babalarımızdan miras qalan torpaqlarımızı göz bəbəyi kimi qorumalıyıq. Vətən bayrağını uca tutmalı iftixarla dalğalandırmağı bacarmalıyıq. Bunun üçün əlimizdən gələni artıqlaması ilə etməliyik. Bütün sahələrdə uğur qazanmalı, işimizin öhdəsindən layiqincə gəlməliyik. Gəncləri veteranlarımızdan, xüsusən də vətəni milləti üçün canından keçən qəhrəmanlarımızdan nümunə götürməyə səsləyirəm.”

Məhərrəm Kazımlının xidmətləri nəzərə alınaraq Müdafiə nazirliyinin yubiley medalına, Respublika Veteranlar Təşkilatının “Veteran həmrəyliyi” və “Təşkilatın yaranmasının 30 illik” yubiley medalına layiq görülüb. O, həmçinin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı ilə təltif edilib.

Bu yaxınlarda 70 illik yubileyini qeyd edəcəyimiz Məhərrəm Kazımlıya “Azərbaycan Veteranı” qəzeti olaraq can sağlığı və fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

# Respublika Veteranlar Təşkilatının dövlətimizin inkişafına verdiyi tövhələr danılmazdır

Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov 29 oktyabr 2019-cu il tarixində bir qrup fəal veteranla görüş keçirib. Görüşdə İkinci Dünya müharibəsində Qələbənin 75 illik yubileyinə hazırlıq, respublikamızda sabitli-



yin pozulmasına yönəlmiş uğursuz cəhdlərin qarşısının alınmasında vətəndaş həmrəyliyi, təşkilat tərəfindən həyata keçirilən tədbirlər və gündəlikdə duran digər məsələlər müzakirə edilib.

Çıxış edən general-polkovnik Tofiq Ağahüseynov respublikamızda həyata keçirilən quruculuq işlərindən, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə atılan addımlardan, ordumuzun gündən günə artan qüdrətindən və siyasi meydanda Ermənistanın məğlubiyyətindən danışdı. “Son günlərdə sabitliyin pozulmasına yönəlmiş hərəkətlər sabitliyimizə qarşı törədilmiş təhdiddir. Bu cür mənfi halların tez bir zamanda qarşısının alınması göstərdiki Azərbaycan xalqı dövlətinin yanındadır. Hər zaman olduğu kimi bu dəfədə xalq - hakimiyyət birliyi sübut olundu”.

Təşkilatın sədri Qələbənin 75 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı tapşırıqlar verdi, yerli icra hakimiyyəti orqanları və digər dövlət qrumları ilə bu məsələlərdə yaxından əməkdaşlıq etməyin vacibliyi vurğulandı.

Görüşdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov Respublikamızda həyata keçirilən sosial iqtisadi islahatlardan, beynəlxalq aləmdə artan nüfuzundan və siyasi arenada əldə olunan növbəti qələbələrdən danışdı.



Respublikanın inkişafına veeteranların verdiyi tövhələrdən, xüsusən də gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində veteranların fəaliyyətindən danışdı. Təşkilatın işinin növbəti mərhələ üçün aktual problemlərinə diqqət çəkdi. İşlərinin yüksək səviyyədə davam etdiriləcəyinə inam ifadə etdi.

Daha sonra veteranları maraqlandıran suallar cavablandırıldı. Respublikamızda veteranların gənclərin vətənpərvərlik tərbiyəsində rolunun daha da artacağı bildirildi. Təşkilatı işlər müzakirə edildi.

# “Silahlı Qüvvələrin gücünə söykənməyən müstəqiliyin ömrü heç vaxt uzun ola bilməz”

Bu gün Azərbaycanın müstəqilliyinin 28-ci ildönümüdür. Bəs bu müstəqilliyin qorunmasında, onun toxunulmazlığının təmin edilməsində Azərbaycan Silahlı Qüvvələrinin üzərinə hansı vəzifələr düşür? Müstəqilliyimizin qorunmasında ordumuzun rolu nə dərəcədə həlledicidir?

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov bu məsələdə ordunun önəminin böyük və birmənalı olduğunu vurğuladı: “Mən öncə müstəqilliyimizin 28-ci ildönümü münasibəti ilə bütün xalqımızı, eləcə də Silahlı Qüvvələrimizi təbrik edirəm. 18 oktyabr bizim üçün tarixi bir gündür. Çünki məhz bu gün xalqımız növbəti dəfə müstəqilliyinə qovuşmaqla öz taleyinin əsl sahibinə çevrildi.

Təbii ki, müstəqilliyimizin qorunmasında, onun toxunulmazlığının təmin edilməsində ordunun müstəsna rolu var. Silahlı Qüvvələrimiz müstəqilliyimizin təminatçısı, onun toxunulmazlığının qarantıdır. Hər bir dövlətin müstəqilliyini onun ordusu, Silahlı Qüvvələri təmin edir. Bu baxımdan ordu nə qədər güclü, nə qədər qüdrətlidirsə, həmin dövlətin müstəqilliyi də bir o qədər güclü və dayanaqlı olur.

Sevindiricidir ki, son 28 ildə Azərbaycan ordusunun möhkəmlənməsi, onun döyüş qabiliyyətinin artırılması, müasir hərbi texnika və peşəkar kadrlarla təmin edilməsi istiqamətində çox böyük addımlar atılıb. Silahlı Qüvvələrimizin müstəqilliyimizin qorunmasındakı rolunu əsas götürərək deyə bilərik ki, ordumuzun möhkəmləndirilməsinə yönəlik bu addımlar, həm də ölkəmizin müstəqilliyinin gücləndirilməsinə xidmət edib. Bu məsələdə həm ümummilli lider Heydər Əliyevin, həm də prezident İlham Əliyevin müstəsna xidmətləri danılmazdır. Bu gün də Ali Baş Komandanın rəhbərliyi altında Silahlı Qüvvələrimizin gücləndirilməsi prosesi uğurla davam etdirilir.

Azərbaycanın ərazi bütövlüyünə qəsd olunub. Bu gün torpaqlarımızın bir hissəsi erməni işğalı altındadır. Erməni istilasının aradan qaldırılması, işğal altındakı torpaqlarımızın azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi vəzifəsi də məhz ordumuzun üzərinə düşür. Bu gün xalqımızın bütün ümidləri məhz Azərbaycan Silahlı Qüvvələrinə, Azərbaycan əsgərinədir. Bunun özü xalqımızın həyatında, onun müstəqilliyinin təminatındakı əlahiddə rolundan xəbər verir. Tarix sübut edir ki, ordunun gücünə və xalqın sevgisinə söykənməyən müstəqilliyin ömrü heç vaxt uzun olmayıb, ola da bilməz. Qürurvericidir ki, bu gün Azərbaycan müstəqilliyinin keşiyində sözün həqiqi mənasında möhtəşəm Silahlı Qüvvələrimiz və böyük xalq sevgisi dayanır.

Əminəm ki, işğal edilmiş torpaqlarımızın azad edilməsi ilə bağlı diplomatik danışıqlar nəticə verməzsə, o zaman Silahlı Qüvvələrimiz qısa zamanda işğal altındakı torpaqlarımızı azad etməklə ölkəmizin ərazi bütövlüyünü təmin edəcək, müstəqil Azərbaycanın üçrəngli bayrağının Qarabağda, Şuşada dalğalanmasına nail olacaq”.

***Seymur ƏLİYEV***

# Zirvə görüşü Azərbaycanın növbəti diplomatik qələbəsi oldu

***“Qoşulmama Hərəkatının Zirvə görüşünün Azərbaycanda keçirilməsi ən böyük siyasi tədbir idi. Dünyanın 120 ölkəsi Azərbaycanın haqlı mövqeyini müdafiə etməsi ölkəmizin münaqişə ilə bağlı ədalətli mövqeyini daha da gücləndirdi”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib.***

O bildirib ki, təşkilatın Bakıda keçirilən toplantıları çərçivəsində qəbul edilən sənədlərdə yer alan məsələlər artıq beynəlxalq ictimaiyyətin də Azərbaycanın haqq sözünü dediyini bir daha sübut edir: “Zirvə Görüşündə iştirak edən ölkələr də Ermənistandan BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum 4 qətnaməsinin yerinə yetirilməsini istəmiş oldular. Bu, Azərbaycanın ciddi diplomatik qələbəsidir. Belə bir məqamda Ermənistan bu çağırışa qarşılıq olaraq işğal etdiyi əraziləri tərk etməlidir. ”

Qoşulmama Hərəkatının BMT-dən sonra dünyada ikinci siyasi təşkilat olduğunu deyən təşkilatın sədr müavini söyləyib ki, Zirvə Görüşündə iştirak edən yüzlərlə nümayəndə ölkəmizin real iqtisadi, sosial vəziyyəti, qədim tarixə malik olmasını öz gözləri ilə görmüş oldular: “Bununla da, qonaqların Azərbaycan haqqında təsəvvürləri daha da genişləndi, mədəniyyətimiz, qonaqpərvərliyimiz, sülhpərvərliyimizin şahidi oldular”.

C.Xəlilov qeyd edib ki, Qoşulmama Hərəkatına sədrliyin 3 il müddətində Azərbaycana həvalə edilməsi böyük missiya olsa da, ölkəmiz bu işin öhdəsindən layiqincə gəlməyə qadirdir: “Əminəm ki, ölkəmiz bu müddət ərzində hərəkatın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirmək, ədalətin təmin olunması üçün əlindən gələni edəcək”.

Azərbaycanın son dövrlərdə çox böyük tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini deyən ehtiyatda olan polkovnik əlavə edib ki, bütün bunlar dünya ölkələrinin Azərbaycana etibar, inam və ehtiramının əyani göstəricisidir: “Beynəlxalq tədbirə ev sahibliyi etmək o qədər də asan məsələ deyil. Bunun üçün ölkədə sabitlik, stabillik və təhlükəsizlik mütləqdir. Böyük tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi ölkəmizin sabitlik, stabillik, təhlükəsizlik məkanı olduğunun beynəlxalq aləm tərəfindən də qəbul edildiyini sübut edir. Ölkəmizin dünyada nüfuzu gündən-günə artır. Təbii ki, bu uğurun arxasında Prezident İlham Əliyevin gərgin və geniş əhatəli diplomatik fəaliyyəti dayanır”.

***Nailə Məhərrəmova***

# İlk Sovet İttifaqı Qəhrəmanı - İsrafil Məmmədov

İsrafil Məmmədovu “Azərbaycan Pəhləvanı”, “Sovet bahadırı” adlandırırdılar. Bu ad o vaxtı bütün xalqın dilində əzbər, eləcə də qəzet və jurnalların birinci səhifə məqalələrinin əsas başlıqlarında idi. Məmmədov ikinci dünya müharibəsində döyüşlərdə göstərdiyi qəhrəmanlığa, şücaətə görə xalqın dilində əzbər olub. İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı isə 1941-ci ilin noyabırın 25-də verilib.

İsrafil Məmmədov 1919-cu il martın 16-da Gəncədə dünyaya göz açıb. İndi həm Gəncə şəhərində, həm də doğulduğu Şəmkirin Qapanlı kəndində igid oğlumuzun abidəsi ucalır.

İyirmi yaşlı gənc İsrafil əsgərliyə gedəndə ölkədə əmin-amanlıq idi. Müharibə başlayanda yüz minlərlə azərbaycanlı döyüşçü arasında ilk dəfə olaraq İsrafil Məmmədov doğma diyarının adını dünyaya tanıtdı.

1941-ci ilin dekabr ayında döyüşən ordudan Gəncəyə xoş bir xəbər gəldi: Şimal-Qərb cəbhəsinin Siyasi İdarəsi sizdən xahiş edir: İsrafil Məhərrəm oğlu Məmmədovun üçüncü vağzal küçəsindəki 39 nömrəli evdə yaşayan ailəsinə xəbər verin ki, onların oğlu, bizim cəbhənin döyüşçüsü faşist işğalçılarına qarşı döyüşlərdə igidlik göstərdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür".

Şaxtalı dekabr gecəsi iki batalyon alman avtomatçısı Novqorod vilayətinin Pustınka kəndinə yaxınlaşmışdı. İlk baxışda elə göründü ki, bu kənddəki strateji obyekti müdafiə edən rota mühasirəyə alınıb. Almanlar burada toplardan və minaatanlardan şiddətli atəş açıb hücuma keçdilər. Budur, onlar artıq kəndin yüz metrliyinə çatdılar. Artıq hər bir faşistin üzünü görmək olurdu.

- Atəş! - deyə İsrafil Məmmədov komanda verdi.

Məmmədovun döyüşçüləri avtomat silahlardan yaylım atəşi açdılar. Bu atəş düşməni xəncər kimi kəsdi. Faşistlərin birinci sıraları məhv edildi. Almanlar radiostansiyanı məhv etməyə çalışırdılar. Beş əsgər stansiyaya yaxınlaşırdı, lakin bunların beşi də məhv edildi. Beləcə, gərgin döyüş azı on saat davam etdi. Avtomat silahların patronları qurtarırdı. Məmmədovun yanında öldürülmüş və yaralanmış döyüşçülər uzanmışdılar, bunlar onun dostları, silahdaşları idilər. Kəndi müdafiə etmək üçün cəmi səkkiz əsgər qalmışdı. Məmmədov avtomatı bir yana qoyub tüfəngi götürdü. Patrona qənaət etmək lazım idi. İndi snayper Məmmədov təkcə özü atəş açırdı. Yaralı avtomatçılar və radistlər tüfəngi doldurub ona verirdilər, o da arası kəsilmədən düşməni atəşə tuturdu. Tüfəng patronları da qurtardı. Faşistlər isə irəliyə can atırdılar. Gərgin süngü döyüşü başladı. Hamıdan irəlidə komandir Məmmədov özü gedirdi. Pustınka kəndini müdafiə edənlər kömək gələnə qədər mövqelərini əldən vermədilər. Bu hadisə dekabr ayının ilk günlərində baş vermişdi. Ayın 11-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Dörd gündən sonra Şimal-Qərb cəbhəsinin komandanı, general-leytenant P.A.Kuroçkin şəxsən özü qəhrəmanın hüzuruna gəldi. Birbaşa döyüş meydanında təntənəli şəraitdə İsrafil Məmmədova Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanının "Qızıl ulduz"u təqdim edildi. İsrafil Məmmədov inamla dedi:





- Mənim 22 yaşım var. İndi həyatımın əsl mənasını daha çox faşisti məhv etməkdə görürəm. Nə qədər ki, sağam, mən bu amalla faşizmə qarşı vuruşacağam.

General gülümsündü. Qəhrəmana üçdiskli avtomat bağışladı. Qəhrəmanın şərəfinə Şəmkirdə, doğma Qapanlı kəndində, Gəncədə və başqa yerlərdə keçirilmiş mitinqlərdə də eyni ilə tərif və təbliğat sözləri səslənirdi.

Həmin ilin mayında ağır yaradan sonra hospitalda müalicə olunmuş qəhrəman Gəncəyə gəlir. Bu zaman artıq İsrafil Məmmədovun hünərindən təkcə döyüşçülər nümunə götürmürdülər, "Məmmədovçular" hərəkatı arxa cəbhədə də geniş vüsət almışdı. İ.Məmmədov yenidən daha böyük cəsarətlə döyüş meydanına atılır. 1943-cü il mayın sonuna kimi mərdliklə vuruşur, ikinci dəfə yaralanır, döyüş dostlarından ayrılmalı olur. O, bir müddət respublika komsomolunun Mərkəzi Komitəsində işləyir.

Faşistlərə sonsuz nifrətini yenidən dönə-dönə nümayiş etdirdi. Xeyli vuruşdu. Lakin üçüncü yara qəhrəmanın səhhətini tam sarsıtdı. 1946-cı ildə qızları Qalina və Svetlana atalarını həmişəlik itirdilər. Qəhrəman İsrafil Məmmədov 1946-cı il mayın 1-də Yalta hospitalında əbədiyyətə qovuşdu. Qəhrəmanın cənazəsi xüsusi təyyarə ilə doğma yurduna gətirildi və Gəncənin mərkəzində, indiki Xan bağında torpağa tapşırıldı.

Onun haqqında istər rus mətbuatında, istərsə də doğma Azərbaycanda çox əsərlər yazılıb. O illərdə Gəncədə yaşayıb-yaradan Mir Cəlal Paşayev də İ.Məmmədovun hünərindən riqqətə gələrək "Qəhrəmanın yolu" adlı geniş bir oçerki qələmə alır. 1942-ci ildə isə Bakıda sevimli ədibin "İsrafil" adlı kitabı çap olunur.

# İsrafil Məmmədov bizim ölməz qəhrəmanımızdır

Yetişməkdə olan nəslin vətənpərvər ruhda böyüməsi, tarixinə bağlılığı, qəhrəmanlarını tanıması kimi məsələlər bu gün daha qabarıq şəkildə özünü biruzə verir. Müasir hərb tariximizlə yanaşı, Sovet Azərbaycanı üçün də canından keçən və igidliyi ilə tarix yazanların unudulmaması diqqət çəkən məqamdır. Azərbaycanın İlk Sovet İttifaqı qəhrəmanı İsrafil Məmmədovun anadan olmasının 100 illiyi ilə əlaqədar gənclər mütəmadi olaraq qəhrəmanın ev muzeyi ilə tanış olurlar.



İsrafil Məmmədovun 100 illiyi ilə əlaqədar olaraq qəhrəmanın ev muzeyində gənclərlə veteranların görüşü təşkil olunub. Tədbirdə İsrafil Məmmədovun yaxınları, Gəncə şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov, veteranlar, gənclər və ictiamiyyət nümayəndələri iştirak ediblər.

İsrafil Məmmədovun bacısı oğlu Füzuli Hüseynov çıxışında muzeyi ziyarət edən gənclərə hər zaman qəhrəman haqqında danışdığını bildirdi. “1941-ci ilin iyun ayında müharibə başlayıb. Cəmi 3-4 ay ərzində İsrafil Məmmədova Sovet İttifaqı adı verilib. Azərbaycanda, bizim ailədə Sovet İttifaqı adının nə olduğu bilinmirdi. Təbii idi ki, qürur hissi duyuram ki, 22 yaşında Sovet İttifaqı Qəhrəmanı olub. O, 27 yaşında dünyasını dəyişib. Onunla nəinki bizim ailədə, bütün Azərbaycan, SSRİ onunla fəxr edirdi. Çünki əsl qəhrəmanlardan biri idi.

Azərbaycanın da faşizmə qarşı mübarizədə iştirak edən minlərlə igidlərindən olan İsrafil Məmmədov onların arasında birinci olub. Ölkə və xalq adına ilk Sovet İttifaqı qəhrəmanı kimi. Döyüşlərdə göstərdiyi sücaət, vətən sevgisi, qələbə naminə doğma diyarının varlığı uğrunda mübarizə aparıb. Qəhrəmanlığı ilə Lenin ordeni, Qızıl Ulduz medalına da layiq görülüb İsrafil Məmmədov.

Vətənpərvərliyi ilə xarakterizə olunan Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı həmin dövrün gəncləri üçün də torpağa bağlılıq alovu yandırmışdı. Onun qəhrəmanlığı həmin dövrdə olduğu kimi bu gün də gənc nəsil üçün nümunə sayılır.



Gəncə Şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov: “İsrafil Məmmədov Azərbaycan xalqının qəhrəman oğludur. İsrafil Məmmədov hər zaman öndə gedirdi. 1941-ci ildə Alman faşistlərinə qarşı İsrafil Məmmədov qəhrəmanlıqla döyüşdü, Moskvanın müdafiəsində İsrafil Məmmədovun böyük rolu vardı, bu danılmazdı.

Yeniyetmə və gənclərin İsrafil Məmmədov olmasının 100 illiyi ilə bağlı tədbirlərdə iştirakı əbəs deyil. Gələcəyin qəhrəmanlarının formalaşması üçün İsrafil Məmmədovun həyat və fəaliyyətinin öyrənilməsi vacibdir. Qəhrəmanın ev muzeyini ziyarətə gələnlər İsrafil Məmmədovun şəxsi və döyüş əşyaları ilə tanış olmaqla, burada saxlanan eksponatlar barədə daha yaxından məlumat aldıqda daha dolğun məlumata yiyələnirdilər. Bu onların dilindən səslənən şerlərdə, oxunan mahnılarda özünü biruzə verir”.



Digər çıxış edənlər Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun qəhrəmanlığının hər zaman xatırlanacağını bildirdilər. Qəhrəmanların hər zaman yaşadıqlarının diqqətə çatdırdılar. İsrafil Məmmədovun yolunu davam etdirən mərd və qəhrəman, Vətənə, torpağa bağlı oğulların bu gün də cəbhədə düşmənə sipər olması erməni faşizmi üzərində qələbə gününü də yaxınlaşdırır.

# 1941-1945-Cİ İL MÜHARİBƏSİNİN 75 İLLİYİ ƏRƏFƏSİNDƏ AZƏRBAYCANIN ŞƏRƏF VƏ QƏHRƏMANLIQ ABİDƏLƏRİ

Bu gün qürurla deyə bilərik ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsində qazanılan qələbədə Azərbaycan xalqının da böyük payı vardır. Sözün əsl mənasında böyük!.. Bu ondan ibarətdir ki, Azərbaycan Respublikasının əhalisinin 600000 -i orduya səfərbər olunmuşdur. Onlar qəhrəmancasına vuruşaraq mərdlik nümunələri nümayiş etdirmiş, Azəri torpağının oğul və qızlarının ən yüksək keyfiyyətlərə malik olduqlarını sübuta yetirmişlər. Müharibədə 300000-dən artıq əsgər və zabit həlak olmuş, minlərlə itkin düşmüş və yaralanmışdır.

Bu müharibədə azərbaycanlılar şücaət, mətinlik göstərmişdir və xalqımız onların xatirəsini əbədi saxlayır. Faşist qəsbkarları ilə mübarizədə onlar Sovet İttifaqının digər xalqlarının nümayəndələri ilə çiyin-çiyinə Brest qalasında, mühasirədəki Leninqradda, Moskva altında və Stalinqradda, Qafqazda, Kursk ətrafında döyüşmüş, Ukrayna və Belarusiyanın, Pribaltikanın, Moldaviyanın, köləliyə düçar edilmiş Avropa xalqlarının azad edilməsində iştirak etmişlər. 10 minlərlə Azərbaycan övladı göstərdikləri mərdlik və fədakarlığa görə orden və medallarla təltif edilmiş, 122 əsgər və zabiti isə ən yüksək - Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

Azərbaycanda yaradılmış 416-cı "Qırmızı bayraqlı", II dərəcəli Suvorov ordenli Taqanroq atıcı diviziyası Qafqaz dağları ətəklərindən başlayaraq Berlinədək uzun döyüş yolu keçmiş və Brandenburq qapılarında Qələbə bayrağını sancmışdı. Taqanroqda, Sambek yüksəkliklərində 416-cı və 130-cu qvardiya diviziyalarının şərəfinə monumental heykəltaraşlıq kompozisiyası - Döyüş şöhrəti memorialı ucaldılmışdır. Bu, Böyük Qələbə naminə qanlarını əsirgəməyən, həyatlarından keçən xilaskar əsgərlərə Azərbaycan və Rostov vilayəti zəhmətkeşləri tərəfindən qoyulan abidədir. Azərbaycandan yola düşən 77-ci Qırmızı bayraqlı, II dərəcəli Suvorov ordenli Simferopol, 223-cü Qırmızı bayraqlı Belqrad, 402-ci və digər diviziyaların xidmətləri danılmazdır.

Alman faşizmi üzərində qələbədə, igid, mərd oğullarımızın döyüşlərdə vuruşması ilə yanaşı, Sovetlər ittifaqında ümumi hasil edilən neftin 80 faizinin Azərbaycanda çıxarılması və emal edilməsi, buradan cəbhəyə silah, döyüş sursatı, ərzaq və dərmanların göndərilməsi mühüm əhəmiyyət kəsb edir.

Çıxışlarının birində ulu öndər Heydər Əliyev demişdi: "Faşizmə qarşı II Dünya və Böyük Vətən müharibəsində öz həyatlarını qurban vermiş Azərbaycan Respublikası nümayəndələrinin xatirəsi əzizdir, ürəklərimizdə əbədi olaraq yaşayacaqdır"...

Azərbaycanın qəhrəman oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank orduları general-mayoru Həzi Aslanovun məzarı qarşısında həmişə çoxlu insan toplaşır. O, Moskva uğrunda döyüşlərdə fərqlənmişdi. Tank bölməsinə komandirlik edən Həzi Aslanov Qızıl Ordu hissələrindən birini və hərbi sursatla dolu 50 yük maşınını mühasirədən çıxarmış, yaralanmış tankçını şəxsən əvəz edərək, düşmənin xeyli texnikasını və canlı qüvvəsini məhv etmişdi. Bu qəhrəmanlığına görə o, "Qızıl Ulduz" ordeni ilə mükafatlandırılmışdı.

Stalinqrad altında döyüşlərdə Həzi Aslanov xüsusilə fərqlənmişdi. Sovet İttifaqı marşalı A.İ. Yeryomenko öz xatirələrində yazırdı: "Çox mühüm əhəmiyyətli əməliyyat meydanında altı gün idi ki, döyüşlər bitmək bilmirdi. Verxnekumsk bir neçə dəfə əldən-ələ keçirdi. Podpolkovnik Həzi Aslanovun komandanlıq etdiyi alay müdafiədə olmazın mətanət və mərdlik nümayiş etdirərək fərqlənmiş, onun tankçıları sonradan əks-hücuma keçmişdilər. Bu döyüşlərdə onlar faşistlərin 45 tankını, 26 topunu, 50 avtomaşınını, 2 mindən çox əsgər və zabitini məhv etmiş, 700 hitlerçini əsir götürmüşdü. Göstərdiyi şücaətə görə alay komandiri Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü".

General-mayor Həzi Aslanovun tankçıları düşmənlə Dnepr çayı hüdudlarında, Belarusiyada, Pribaltikada fədakarlıqla döyüşürdülər. Həzi Aslanov 1944-cü ilin yanvar ayının 24-də döyüş meydanında həlak olmuşdu.

Azərbaycan xalqına başsağlığında I Pribaltika cəbhəsinin komandanlığı yazırdı:

"Qızıl Ordu və bütün Sovet xalqı Vətəni səmimi qəlblə sevən və onun azadlığı, səadəti uğrunda mübarizəyə həyatını həsr edən bir insanın simasında ağır itki vermişdir. Həzi Aslanovun adı bizim ürəklərdə, cəbhənin döyüşçülərinin xatirələrində daima yaşayacaqdır".

Moskva altında döyüşlərin qızğın çağında, 1941- ci ilin dekabrın 3-də azərbaycanlı döyüşçünün - baş serjant İsrafil Məmmədovun təkraredilməz şücaəti xəbəri bütün ölkəyə yayıldı. O, müxtəlif millətlərdən olan iyirmi döyüşçü ilə birlikdə komanda məntəqəsini və rabitə xəttini qoruyurdu. Qüvvələr nisbəti bərabər deyildi. Güclü artilleriya hazırlığından sonra sovet əsgərlərinin tutduqları mövqə üzərinə 50 hitlerçi hücuma başladı. İsrafil Məmmədovun əmri ilə döyüşçülərimiz onları otuz metrəlik məsafəyə yaxın buraxaraq sərrast atəşlə məhv etdi. Uğursuzluqdan vəhşiləşmiş faşistlər yenidən irəli atılmış, lakin bu səfər də geri oturdulmuşdular. Cinahlardan keçsələr belə onlar sovet əsgərlərini mühasirəyə ala bilməmişdilər. Doqquz saatlıq döyüşdən sonra Məmmədovun döyüşçüləri düşmənə mövqelərini nəinki verməmiş, hətta onları 200 metr geri çəkilməyə məcbur etmişdilər. Bu vuruşda o şəxsən üç faşisti süngüləmişdi. Beləliklə, İsrafil Məmmədov 20 əsgərlə on saat ərzində bir batalyon hitlerçinin yolunu kəsib, bir addım belə irəliləməyə qoymamış, düşmənin 300-dən çox əsgər və zabitini qırmışdı. SSRİ Ali Sovetinin Rəyasət heyətinin 1991-ci il 11 dekabr tarixli fərmanı ilə İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Bu fəxri ada o, azərbaycanlılar arasında birinci olaraq layiq görülmüşdü.

Faşist əsirliyindən qaçan Cavad Həkimli, Rza Ağazadə, Mehdi Hüseynzadə, Qədir İsgəndərov, Mikayıl Qulubəyov, Rza Orucov və digər Azərbaycan əsgərləri çoxlu silah ələ keçirərək İtaliya-yuqoslav partizan korpusuna qoşulmuşdular. Sovet əsirlərindən olan bölüyün komandiri Cavad Həkimli, siyasi komissarı isə Mehdi Hüseynzadə təyin edilmişdi.

Elə birinci döyüş əməliyyatlarında bölük ona göstərilən etimadı doğrultmuş və buna görə komandanlığın təşəkkürünü qazanmışdı.

Partizan qərargahının köməyi ilə Azərbaycan və rus dillərində vərəqlər buraxılırdı. Onlarla sovet-alman cəbhəsindəki vəziyyət, Yuqoslaviyanı, Şimali İtaliyanı, Triyesti bürüyən partizan hərəkatının gedişi haqqında məlumat verilirdi.

1944-cü ilin əvvəllərində 9-cu partizan korpusunun nəzdində Mehdi Hüseynzadənin (təxəllüsü - Mixaylo) rəhbərliyi altında diversiya qrupu yaradılır. Onun qəhrəmanlıqları qısa müddətdə bütün Adriatik dənizi sahillərinə yayılır. Növbəti hərbi tapşırığı yerinə yetirərək kəşfiyyatçılar alman paltarında, məxfi xəritələrin saxlanıldığı binaya daxil olub onları partizan dəstəsinə gətirib çıxarmışdılar. Bu qrup dəfələrlə faşist qarnizonlarından keçib mühüm məlumatlar toplayırdılar.

1944-cü ilin aprelin 2-də Mehdi Hüseynzadə dostu Tağı Əlizadə ilə Triyestde faşistlər filmə baxdığı zaman kinoteatrı partlatmış, düşmənə xeyli itki vurmuşdular.

Bir müddət sonra diversiya qrupu ilə alman zabit və əsgərlərinin toplandığı kazinonu da partladırlar. Arxiv sənədlərində olan məlumata görə bu qrup alman ordusunun ümumilikdə mindən artıq zabitini məhv etmişdi. Partizan qərargahının əmri ilə Mehdi Hüseynzadə partizanlara və dinc əhaliyə divan tutan faşist cəlladı N.Kerqneri cəzasına çatdırıb öldürmüşdü. Postoyna dəmiryol stansiyasının yaxınlığındakı böyük körpünü partlatmaqla hitlerçilərin qatarını uçuruma yuvarlatmışdı. İgid kəşfiyyatçılar bundan əlavə dörd düşmən eşalonunu, iki benzin anbarını, Opçinadakı enerji qurğusunu məhv etmişdilər. Mehdi Hüseynzadə faşist zabiti formasında almanların aerodromuna daxil olaraq onların 2 təyyarəsini, 2 avtomaşınını və 25 qarajını minalarla göyə sovurmuşdu. Bundan sonra o, düşmənin yataqxanasını, məşğələ keçən əsgər bölüyünü və s. məhv etməyə müvəffəq olmuşdu. Yalnız sonuncu tapşırıqdan Mixaylo qalib qayıtmamışdı. Bərabər olmayan atışmada Mehdi Hüseynzadə sonuncu patrona kimi vuruşmuş və 1944-cü il noyabrın 2-də qəhrəmancasına həlak olmuşdu.

SSRİ Ali Sovet Rəyasət Heyətinin 11 aprel 1957-ci il fərmanı ilə o, ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdü. Bakı şəhərinin mərkəzində onun xatirəsini əbədiləşdirmək üçün abidə ucaldılmışdır.

Azərbaycanın bütün rayonlarında faşist qəsbkarları ilə müharibədə azərbaycanlı igidlərin qəhrəmanlıqlarını əks etdirən, abidələr memoriallar, obelisklər, büstlər qoyulmuşdur.

Təsadüfi deyildir ki, Böyük Vətən müharibəsi dövründə Vətəni, xalqı faşist əsarətindən qoruyaraq həlak olmuş Həzi Aslanovun məzarı və abidəsi yaxınlığında Azərbaycana təcavüz zamanı, 1990-cu ilin yanvarında həlak olanlar dəfn edilmişdir. Erməni işğalçıları ilə mübarizədə Azərbaycan torpaqlarını müdafiə edən, respublikamızın azadlığı və suverenliyi yolunda canlarından keçən mərd oğul və qızlarımız da burada son mənzillərini tapmışdır. Hazırda bura ən müqəddəs yerdir - Şəhidlər Xiyabanı. Burada xeyli döyüşçümüz dəfn edilmişdir. Şəhidlər xiyabanı bir tərəfdən, Azərbaycanın keçdiyi ağır sınaqları bütün dünyaya nümayiş etdirməklə, digər tərəfdən xalqımızın Vətəninə, millətinə, torpağına nə qədər sədaqətli olduğunu göstərir. Məhz buna görə Azərbaycanın bütün qəhrəmanlarının, şəhidlərinin xatirəsini əbədi yaşatmalıyıq. Allah rəhmət eləsin. Qəbirləri nurla dolsun. Onların xatirəsini xalqımız daima ürəyində yaşayacaqdır.

Azərbaycanın Bakıdakı bu guşəsi hamı üçün müqəddəsdir: ziyarətə gələn hər kəs gəlişi ilə Azərbaycan Respublikasının azadlığının toxunulmaz, əbədi olduğunu bir daha söyləyir. Biz öz müstəqil dövlətimizi qoruyub saxlayacaq, ərazi bütövlüyümüzü bərpa edib sərhədlərimizin toxunulmazlığını təmin edəcəyik. Suveren, azad Azərbaycan Respublikası müstəqil dövlət kimi əsrlər boyu yaşayacaqdır.

Azərbaycan və Rusiya yazıçılar və jurnalistlər birliklərinin üzvü Şəddat Cəfərov.

---

### *Calud kəndimiz*

Ən uca dağların qoynunda durub
Meşələr muncuq tək boynunda durub
Əlvan gül-çiçəklər oynunda durub
Suyu buz bulaqlı Calud kəndimiz

Yaşıl çəmənləri, açıq düzləri
Gəzib seyr eləyir gözəl qızları
Sönmür ocağının odu, közləri
Bizim çıl-çıraqlı Calud kəndimiz

Sevil tək ismətli, gözəl qızı var
Gələn qonaqlara şirin sözü var
Dağlarında yay, qış qarı, buzu var
Çağlayan irmaqlı Calud kəndimiz

Kəkliyi, turacı, bülbülü boldur
Zirvələr göylərə ucalan qoldur
Kim gəlsə bu yerə bir açıq yoldur
Hər gün yüz qonaqlı Calud kəndimiz

Dəyişmərəm bütün dünyaya onu
Burdan alıb könlüm ilhamı odunu
Zərif çiçəklərdən toxunub donu
Al lalə yanaqlı Calud kəndimiz

Hidayət oğlundur, ey doğma yurdum
Mən sənin qoynunda bir binə qurdum
Hər səhər yuxudan eşqinlə durdum
Məhəbbət növraqlı Calud kəndimiz

### *Mənim doğma Oğuz yurdum*

Sinən üstə yuva qurdum
Hər günü xoş başa vurdum
Keşiyində möhkəm durdum
Mənim doğma Oğuz yurdum

Qüdrətimsən, vüqarımsan
Bir işıqlı diyarımsan
Sən ki ömür baharımsan
Mənim doğma Oğuz yurdum

Hər tərəfin baxça, bağdır
Küçələrin çılçıraqdır
Başın üstə el bayraqdır
Mənim doğma Oğuz yurdum

Darıxıram sənsiz yaman
Halım olur çox pərişan
Uğrunda verərəm can
Mənim doğma Oğuz yurdum

Sənsən mənim gülüstanım
Pozulmayan bir dastanım
İlk beşiyim, son məkanım
Mənim doğma Oğuz yurdum

***Hidayət Musayev***
***istefada olan polkovnik,***

***Oğuz***

AZƏRBAYCAN VETERANI

# Vurun, qardaşlar! Faşistlərə ölüm!

Əgər yaşasaydı qələbəmizin 30 illiyi təntənələrinə qovuşduğumuz günlərdə Mikayılın 50 yaşı tamam olardı. O, bu illərin yalnız 19 baharını görə bildi. 18 yaşında cəbhəyə getmiş igid komsomolçunun adını ömrün 19-cu baharı əbədi qəhrəmanlıq-xoşbəxtlik baharına qovuşdurdu.

Mikayıl azərbaycanlı Sovet İttifaqı qəhrəmanları arasında yaşca hamısından cavanı idi. Onun ömrü gənc nəslin arzularını qəhrəmanlığa qanadlandıran əsil tərbiyə məktəbidir. Gəlin bu qısa, lakin mənalı ömrün səhifələrini birlikdə vərəqləyək.

1924-cü ilin yayı idi. Abşeronda isti günlər başlanmışdı. İyul ayının 23-də bağlar axşam sərinliyinə bürünəndə sahildə bir körpə səsi eşidildi. Xəzərin pıçıltıları bu körpənin ilk yuxusuna, ilk mışıltısına qarışdı.

1930-cu ilin aprelin 24-də Mikayılın atası buruq qəzasına düşüb həlak oldu. Ana öz övladlarını göz bəbəyi kimi qorudu. 1931-ci ildə Mikayıl Binəqədidəki 182 nömrəli məktəbin birinci sinfinə qəbul olundu. İllər keçib ketdikcə o, zəhmətə alışır, kitabları daha çox sevməyə başlayırdı. Arıq, çəlimsiz bir uşaq olan Mikayıl nəhayət, məktəbin fəxr etdiyi şagirdlərdən oldu: şəkli əlaçılar lövhəsinə vuruldu.

***VƏTƏN ÇAĞIRIR***

Mikayıl dəniz sahilində doğulmuşdu və görünür, Xəzər öz sevgisini elə o vaxtdan da onun qəlbinə, ruhuna köçürmüşdü. Anası ona zolaqlı dənizçi köynəyi almışdı. Sahildə dayanıb, maraqla uzaqlarda ağaran yelkənli qayıqlara tamaşa edərdi. Həmişə: «Dənizçi olacağam, kapitan olacağam!» - deyirdi. Bu arzu ona üstün gəldi: orta təhsilini başa vurmamış Bakı dənizçilik məktəbinin kursantı oldu.

İllər bir-birindən maraqlı keçirdi. Birdən müharibənin başlanması xəbəri hər yanı bürüdü. Doğma Vətən torpağının çağırışını Mikayıl da eşitdi. Müharibənin ilk günlərindən kursant yoldaşları ilə barjlarda cəbhə üçün yanacaq daşıdı. Anası Mariya Semyonovna, qardaşı Cəbrayıl, bacısı Süreyya aylarla onu görmürdülər.

1942-ci ilin iyul ayında, bir axşam qapıları döyüldü. Cəbrayılla Süreyya «Mikayıl gəldi!» deyib dərhal həyətə şığıdılar. Lakin qapıda əlində çamadan tutmuş başqa bir kursant dayanmışdı. O, Mikayılın könüllü cəbhəyə getdiyini bildirib, onun çamadanını verdi.

Kursant gedəndən sonra uşaqlar çamadanı açdılar. Evin böyük oğlu anası üçün ayaqqabı, qardaşı Cəbrayıl üçün idman paltarı, bacısı Süreyya üçün qəhvəyi sandal alıb göndərmişdi. Onun həyatı boyu anasına və ailəsinə verdiyi qazanc yalnız bundan ibarət oldu. O, şirin arzularının xoş rahiyəsini, təravətli ömrünü öz doğma vətəninə və bütün insanlara bağışladı.

***SEVİNCLİ-KƏDƏRLİ İLLƏR***

Saray və Binəqədi qəsəbəsindən cəbhəyə yüzlərlə gənc getmişdi. Onlar Vətənin şərəfini hər şeydən uca tutub, düşmənə qarşı hər yerdə mərdliklə vuruşurdular. Bir çoxları orden və medallara layiq görüldülər. Onlardan təkcə Mikayıla Sovet İttifaqı Qəhrəmanı adı verildi. Onun adı tüstü-barıt qoxulu səngərlərdə, evlərdə, ailələrdə dərin iftixar hissilə çəkildi. Sarayda, Mariya Ələkbərovanın işlədiyi kollektivdə də bu münasibətlə təntənəli yığıncaqlar keçirildi. Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı nümayəndələri öz yetişdirmələri haqqında daha fəxrlə danışırdılar.

Ana xeyli müddət bu sevincin təsiri altında yaşadı. O, oğlunun susmasına, məktub yazmamasına başqa məna verirdi: «Yəqin mühüm döyüş tapşırıqlarını yerinə yetirir. Yoxsa heç vaxt bizi unutmazdı».

Nəhayət, yerlərin-göylərin qələbə müjdəsinə büründüyü 1945-ci il gəldi. Uzaq cəbhə yolları şəhərlərə, kəndlərə əsgər daşımaqdan yorulmurdu, küçələrdə, həyətlərdə döyüşdən qayıdanların sayı çoxalırdı. Toy-şadlıq səsləri bir-birinə qarışırdı.

Birdən-birə sanki ananı silkələyib yuxudan oyatdılar. Kirov Rayon Partiya Komitəsində hərbi komissarlığın iki il əvvəl yazılmış bildirişini ağır təəssüf hissilə ona təqdim etdilər. Qara kağızı anaya vaxtında verməyə ürək etməmişdilər. Bəli, Mikayıl indi yalnız xalqının, Vətəninin səadətində, körpələrin ürəkdolusu gülüşlərində yaşayırdı.

Bəs məzarı?

Ana bu sualla çox yerə üz tutdu, neçə- neçə təşkilata müraciət elədi. Bu sual 20 il onun fikrinə, xəyalına rahatlıq vermədi.

Mehriban, qədirbilən ukraynalılar olmasaydı, ana dünyadan niskilli gedəcəkdi.

Xalqımızın bahadır oğlu Mikayıl Məmməd oğlu Ələkbərovun qanlı yaraları da bu torpağın yaşıl çəmənlikləri ilə sarınıb.

Dnepropetrovsk vilayətinin Soriçansk rayonu ərazisində 44 qardaşlıq məzarında 12 min döyüşçü dəfn olunub. Ukraynalılar onların hünərini heç vaxt unutmur və unutmayacaq.

Demə, Mikayıl Ukrayna torpağında, qardaşlıq məzarında dəfn edilibmiş.

Sevimli Mikayıl az qala əfsanələr, rəvayətlər qəhrəmanına çevrilmişdir. Ağbirçək anaları dinlədikcə, Mariya Ələkbərovanı xəyalıma gətirirəm. Oğul dərdi onu vaxtsız qocaltdı, Mikayılın məzarını görmədi. Oğlu haqqındakı rəvayətləri o, bir qədər əvvəllər eşitmiş olsaydı, bəlkə ömrünün üstünə ömür gələrdi...

***SALAM, «MİXAYLO!»***

Dnepr yaxınlığındakı Şerbinovka kəndindəydik. Kəndin mərkəzi hissəsində köhnəldiyi üçün istifadə olunmayan bir bina var. Bir vaxt Mikayılın xidmət etdiyi 81-ci diviziyanın səhra xəstəxanası burada yerləşirmiş.

Bəs onun işçilərindən indi kimi tapmaq olar? Mehriban kənd sakinləri dərhal köməyə çatır, kəndin qərb ucqarındakı birmərtəbə evi nişan verirlər. Keçmiş tibb bacısı Martines Proskoviya Danilovna ilə görüşüb, gəlişimin səbəbini bildirirəm. Ancaq haqqında məlumat almaq istədiyim qəhrəmanın adını çəkmirəm. Mikayılın hərbi geyimli portreti ilə yanaşı bir dəst döyüşçü şəkli çıxarıb göstərirəm.

Qadın bir-bir şəkilləri nəzərdən keçirib kənara qoyur. Həmyerlimizin şəklinə çatanda bir anlığa duruxur, gözlərinə yaxınlaşdırıb daha diqqətlə baxır, özü də hiss etmədən dodaqlarında «Mixaylo», «Mixaylo» kəlmələri titrəyir.



- Bəli, mən bu gənci çox yaxşı tanıyırdım. Başından və sol qılçasından ağır yaralanmış, xeyli qan itirmişdi. Yaralarını öz əllərimlə sarıdım. 15 gün gecə-gündüz başı üzərində qalıb, tibbi xidmət göstərdim.

Proskoviya Danilovna birdən söhbətini kəsib üzümə baxdı:

- Bəlkə sizi başqa döyüşçü maraqlandırır?

Mən xahiş etdim ki, «Mixaylo» adlandırdığı döyüşçü haqqında bildiklərini təfərrüatı ilə danışsın. Bundan sonra o, söhbətini arxayınlıqla davam etdirdi:

- Yaralılarımızın sayı həddən artıq çox idi. Hamısı da bədəncə ondan xeyli güclü görünürdü. Bir tərəfdən həkimlərin vaxtı çatışmırdı, digər tərəfdən də, görünür, ağıllarına sığışdıra bilmirdilər ki, çarpayıda sakitcə uzanmış bu uşaq elə bir qəhrəmanlıq göstərmiş olsun.

... Deyəsən, «Mixaylo» buraya gətiriləndən iki gün sonra idi. Komandirləri yaralılara baş çəkməyə gəlmişdi. İlk növbədə gənc qvardiyaçının qarşısında dayanıb ona tərəf əyildi, vəziyyətini soruşdu. Mikayıl, görünür, danışa bilmədi, ancaq cavab əlaməti olaraq, dodaqları titrədi. Komandir doğma ata kimi onun saçlarını oxşayıb dedi:

- Tez sağalıb sıramıza qayıt, oğul! Səni Sovet İttifaqı Qəhrəmanlığına təqdim etmişik.

Bu sözlərdən sonra o, Mixaylonu həkimlərə tapşırıb, başqa yaralılarla söhbətləşdi.

Həmin hadisədən sonra həkimlərin diqqəti birdənbirə gənc döyüşçüyə yönəldi. Müalicəsinə daha böyük səy göstərildi.

Lakin Mixaylo həddən artıq qan itirmiş, həmçinin qılçasının yarasında zəhərlənmə başlanmışdı. Səylərimiz heç bir nəticə vermədi. 1943-cü il oktyabrın 13-də o, gözlərimiz qarşısında solub getdi.

Şerbinovka kəndinin qəbiristanlığında üstünü ot basmış dərin, enli bir çalanın qarşısında dayanmışıq.1965-ci ildə Şevçenko adına kolxozun üzvləri döyüşçülərin buradakı qəbirlərini kolxoz idarəsinin yerləşdiyi Rudko kəndinə köçürmüşlər.

Kəndin mərkəzində yaşıllıqlar qoynunda 309 döyüşçü bir ananın övladları kimi torpağa baş qoyub yatır. Onların xatirəsinə ucaldılmış abidə kəndin hər yerindən görünür. Adların hamısı abidə qarşısındakı mərmər lövhədə əks olunub. Təkcə Mikayılın adı postamentin yuxarı hissəsindədir. Elə bil əbədiyyət yuxulu qardaşlar onun adını bayraq kimi başları üzərinə qaldırıblar. Axı, Mikayıl onların qəhrəman qardaşlarıdır, ad lövhəsinə nəqqaş xətti ilə dərindən həkk olunmuş yazıları dönə-dönə oxuyuram. Rudkolular qəhrəmanın xatirəsini əziz tutur, onun döyüş şücaətləri ilə fəxr edirlər. Kənddəki səkkizillik məktəbdə qəhrəmana aid foto-sərgi düzəldilib.

***DANIŞ, DNEPR***

Sovet İttifaqı Qəhrəmanı Andrey Semyonovla Dnepr sahilinə gəlmişik. O, yol boyu cəsur həmyerlimizin hünərlərindən danışır. Məlum olur ki, Mikayıl çox mahir kəşfiyyatçı, həm də yaxşı üzgüçü olub. Ordumuz Xarkovu xilas edib, Dneprin sahilinə çatanda Mikayıl dəfələrlə o taya keçmiş, qiymətli məlumatlar gətirmişdir. Bir dəfə növbəti kəşfiyyat zamanı altı faşistlə qarşılaşmış, onlardan dördünü məhv etmiş, ikisini əsir alıb qərargaha gətirmişdi.

Bələdçimiz səmimi söhbəti ilə sanki yolumuzu qısaldır. Təpə üzərində ucaldılmış abidə bizə qanı Dneprin sularına qarışan minlərlə igidin hünərindən söz açır. Abidə qəhrəmanlıq epopeyasının nadir bir səhifəsini əks etdirir. Abidənin yuxarı hissəsində iri hərflərlə məşhur Ukrayna mahnısının sözləri yazılıb:

«Dnepr uğrunda qurban gedənlər əsrlər boyunca yaşayacaqlar».

Bu mahnı təsadüfən yaranmayıb. Dnepr Ukrayna xalqının milyon illik kədərindən, sevincindən axıb keçmiş, bu xalqın taleyinə çevrilmişdir.

İndi əzəmətlə çağlayıb gedən Dneprin sularına baxdıqca iftixar hissindən ürəyim dağa dönür. Axı bir vaxt bizim atalarımız, qardaşlarımız onun uğrunda vuruşub.

Ətrafda keçmiş günlərin səngər nişanələri, zəhmli silahlardan qopub qalmış metal parçaları hələ də, gözə çarpır. Semyonov qayalığa söykənən qazmanı göstərib deyir:

- Burada komandanlığın müşahidə məntəqəsi yerləşirdi. Necə var, qalıb.

Dayandığımız yerdən Dneprin yatağı olduqca geniş görünür. Bu enli sahəni keçib kəşfiyyata getmək asan iş deyildi.

1942- ci il sentyabrın 26-da bizə belə bir tapşırıq verildi: Borodayevka qəsəbəsinə çıxmaq, faşistləri sahildən çıxarıb əzmək. Komandanlıq bu məqsəd üçün 2 qayıq ayırmış, bizi yüngül əl pulemyotları və xeyli qumbara ilə təmin etmişdi. Düşmən projektorları aramsız olaraq çayı işıqlandırır, göz açmağa imkan vermirdi.

Bizə komandirlik edən Mikayılın planı üzrə sahilə yanaşdıq...

Mikayıl bizi əvvəlcədən nəzərdə tutduğu cığırla apardı. Gözətçi məntəqəsində iki faşisti səssizcə susdurduq, sonra iyirmi birini yatdığı yerdə məhv etdik. Qəsəbənin içərilərinə doğru irəliləyib, möhkəm müdafiə mövqeyi seçdik.

- Atəş! Mikayılın bu əmri ilə pulemyotlar bir anda şimşək çaxır. «Ura» səslərimiz düşməni qorxuya salır. Diksinib yuxulu halda qaçan faşistləri yerə səririk. Mikayılla iki döyüşçü tez yaxındakı binanın damına çıxır. Pulemyot atəşindən faşistlərin arasına çaxnaşma düşür. Cəsur kəşfiyyatçının gur səsi damın üstündən eşidilir:

- Vurun, qardaşlar! Faşistlərə ölüm! Deyəsən, düşmən duyuq düşür, bizim kiçik dəstə olduğumuzu anlayır. Üzərimizə hücuma keçir. Tanklar gəlir, Mikayıl bir-birinin ardınca tankları sıradan çıxarır. Ciddi döyüşə atılırıq.

Yaralanırıq, köksümüzün qırmızı fəvvarəsini bir əlimizlə saxlayırıq, yenə döyüşür, düşmənin inadını qırırıq.Qəsəbə düşmənlərdən təmizlənir. Lakin 18 döyüşçüdən cəmi 5-i sağ qalır. Onlar da yaralı vəziyyətdə. Mərmi qəlpələri mənim dörd qabırğamı biçmişdi. Mikayılsa qılçasından və başından ağır yaralanmışdı.

Bizi çayın bu tayına gətirib, Şerbinovka kəndindəki səhra xəstəxanasına göndərdilər...

Semyonov dərindən köks ötürüb, söhbətini tamamladı:

- Xəstəxanada çarpayılarımız yanaşı qoyulmuşdu... O, ölüm ayağında da mərd idi, bir dəfə də olsun sızıltısını, iniltisini eşitmədim. Belə insanlar dünyaya az-az gəlir.

Gənclərimiz onun qədir-qiymətini bilməli, igidliyini nəsil-nəsil yaşatmalıdırlar.

Mikayıl xatirəli yolları geri qayıdıram. Ukraynalı qəhrəmanın böyük ürəklə dediyi sözləri xəyalımdan keçirirəm. Deyirəm: Qəhrəmana ölüm yoxdur!.. El uğrunda, vətən yolunda ölənlərin səsi əbədiyyətə qovuşacaq.

Mikayıl Ələkbərov Sovet İttifaqı Qəhrəmanı adına hələ 26 oktyabr 1943-cü ildə layiq görülmüşdü. Azərbaycai SSR Nazirlər Sovetinin 11 may 1946-cı il qərarına əsasən Saray qəsəbəsindəki orta məktəbə Mikayılın adı verildi. İndi doğma qəsəbənin küçələrindən biri Mikayıl Ələkbərovun adını daşıyır. Bu küçədən hər səhər uşaqlar məktəbə yollanır, onu xatırlayır.

***Faşizm üzərində Qələbənin 30 illiyinə həsr edilmiş buraxılış, Bakı 1975***

# Zəngəzurlu döyüşçünün son öpüşü

*...Əvvəli növbəti sayımızda*

Bunu nə şəkildəsə ermənilər özlərinə xas məkr ustalığıyla təşkil etmişdilər, ya əsər xəbislikdə ermənidən geri qalmayan sapı özümüzdən olan bir baltanın əlinə düşmüşdü, - indi təsdiqləmək çətindir.

Hətta İsrafil müəllim özü də illər sonra etiraf edirdi ki, əsərə rəyini "Burjua mətbuatına belə ürəkdən vurulan müəllifə deyin ki, bu qəbil ölü miraslarına sahib durmaq əvəzinə qoy gedib özünə əməlli-başlı bir iş tapsın" sözləri ilə tamamlayan naməlum resenzenti müəyyənləşdirərək onunla görüşməyə çox çalışsa da, bir nəticə hasil olmamışdı (İsrafil Məmmədov. İrəvan. Azərbaycanın qədim mədəniyyət mərkəzi. Birinci cild. Bakı, 2018, səh.7).

1987-89-cu illərdə Ermənistan xalq təhsili nazirinin birinci müavini təyin edilən İsrafil Məmmədov o vaxtlar "Sovet Ermənistanı" qəzetindən də ayrılmayıbmış, redaktorluğunu davam etdirirmiş.

Günün yarısını nazirlikdə keçirər, günortadan sonra da redaksiyaya baş çəkərmiş.

Yenə İsrafil müəllimin o illərdəki iş-güclə dolu günlərinin ən mötəbər şahidi, oğlu Söhbət nağıl eləyir ki, atası nazir müavini təyin olunan ilk günlərdə belə bir mənzərə ilə rastlaşır:ilin ortası olsa da, görə biləcəyi, ürəyindən keçən işləri gerçəkləşdirməkdən ötrü hesabda vəsait yoxdur, ayrılan pullar xərclənib qurtarıb.

Elə o arada xoş münasibətlərdə olduğu və onun kimi yenicə yüksək vəzifəyə - baş nazirin müavini kürsüsünə ucalmış erməni tanışının yanına gedir.

Deyir, sən də təzə, mən də. Özümüzü göstərməyə, gəlişimizi yaxşı işlə nümayiş etdirməyə ehtiyac var, bu da maliyyəyə bağlıdır.

Baş nazir müavini 1 milyon rubl vəsait ayırır.

Və 10-15 gün ötüncə təəccüblənirlər ki, 1 həftəyə həmin pullar bütünlüklə bilavasitə təyinatı üzrə yönləndirilib.

Bölgələrdə, xüsusən kənd rayonlarındakı məktəblərin bir çoxunda haçandan bəri həsrəti çəkilən təmir işləri başlanır.

Bunların yarısı erməni məktəbləri idisə, tən yarısı da onillərlə hökumət qayğısından kənarda qalmış Azərbaycan dilində tədris aparan məktəblər idi.

Canı yanmaq azdır, o canıyananlığı işdə və qalıcı bəhrələrlə həyata keçirməyə gərək insanda təpər də ola!

Ən dar macalda da milləti üçün faydalı işlər görməyi bacarmış İsrafil Məmmədov belə qeyrətin sahibi idi!

Mən İsrafil müəllimlə 1980-ci illərin əvvəllərində Bakıya gəlişlərindən birində tanış olmuşdum.

O çağlar yazışmamız da olmuşdu, 1987-ci ildə Hüseyn Cavid və ailəsinin məşəqqətli taleyindən bəhs edən "Vaxtdan uca" kitabım çıxandan bir qədər sonra ondan hərarətli bir məktub da almışdım.

Bir müddət sonra "Sovet Ermənistanı"nda əsərlərimlə bağlı məqalə də dərc edilmişdi.

Ömrünün 30 ildən artıq dövrünü həsr etdiyi "Sovet Ermənistanı" partiya qəzeti olduğundan və Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin sayıq nəzarəti heç vəchlə bu qəzetin yazılarından əskik olmadığından orada qələmlə nəsə etmək, azərbaycanlılara qarşı ermənilərin bəd münasibətindən açıq, ya sətiraltı söz açmaq imkansız idi.

Ancaq Ermənistanda Azərbaycan dilində dövlət qəzetinin nədən yazmasından asılı olmayaraq, artıq varlığı bir rəmz, respublika vətəndaşı azərbaycanlılar üçün mühüm özünütəsdiq əlaməti, dayaq idi.

Eyni zamanda, məhz həmin qəzetin gücündən, partiya orqanı olmasının verdiyi imkanlardan, eləcə də özünün respublika ictimaiyyəti arasında xətir-hörmətindən, nüfuzundan yararlanaraq İsrafil Məmmədov Ermənistan boyu onillər əzrində onlarla, yüzlərlə soydaşımızın tapdanan hüququnu qorumağı, kimlərəsə qarşı edilən haqsızlığın qarşısını almağı, Ermənistan azərbaycanlılarının yuxarılara çatması müşkül olan səslərinin lazımi ünvanlara yetməsinə, bağlı qapılarının açılmasına yardımçı olmuşdu.

Həm də ondan kömək, dəstək umanlar yalnız azərbaycanlılar deyildi.

Elə neçə-neçə erməni də hansısa müşküllərinin həlli üçün vaxtaşırı onun qəbuluna tələsirmiş.

Təbiətcə mülayim, təmkinli, sözünün, hərəkətinin yerini bilən və sözünün kəsəri olan, xeyirxah, qayğıkeş, millətcanlı İsrafil Məmmədov heç əlli yaşına çatmamış yaşda qərbi azərbaycanlılar arasında bir ağsaqqal, başbilən kimi tanınırdı, hörmət sahibiydi, xüsusən ziyalılar arasında əksəriyyətin inam, ümid yeri idi.

O, yazıçı idi, jurnalist idi, həm də inadcıl tədqiqatçı idi.

O, ermənini və erməniçiliyi içəridən tanıyan bir adam idi.

Erməniləri olduğu kimi göstərən, onların tarixi saxtakarlıqlarını faş edən, rəzilliklərini açıb ortaya qoyan çeşidli mənbələri axtarıb tapırdı, tərcümə və şərh edirdi, çap etdirə bilməsə də, millətin gözü açılsın, bixəbər qalmasınlar deyə təbliğ edirdi, bu yazıları əl altından yayırdı.

Söz yox, Ermənistanın dövlət rəhbərliyi də, xüsusi xidmət orqanları və ifrat millətçi təşkilatları da İsrafil Məmmədovu yetərincə tanıyırdılar, öz xalqı arasında hansı yüksək hörmət-izzətin, sözükeçərliyin sahibi olduğundan və öz nöqteyi-nəzərlərindən bu kişinin yaxşı-yaman keyfiyyətlərindən də agah idilər.

Yüz cür fitnə-fəsad da törədə bilərdilər, istəsəydilər, partiya-dövlət işindəki bütün səlahiyyətlərindən də məhrum edərdilər, Ermənistandan didərgin də salardılar.

Lakin məhz azərbaycanlılar arasında hamılıqla qəbul edilən bir ağsaqqal, başbilən, söz sahibi olması İsrafil Məmmədovu həm də xilas edirdi.

Çünki erməni nə qədər əysə də, sovetin siyasəti də yerində idi.

İsrafil kimi bir sanballı, sözü eşidilən adam dövlətin də ehtiyatında olmalı idi ki, müəyyən kəskinləşmə hallarında, zərurət məqamlarında bir münsif, araçı kimi irəli çıxarılsın.

Lakin erməni şovinistləri İsrafil müəllimə hər halda ciddidən-ciddi bir xəbərdarlığı da etmişdilər ki, bu, açıqca təhdid idi.

Bu, "cızığından çıxma, həddini bil" xatırlatması idi, "İstənilən anda sənin həyatına son qoyula bilər, özünü yığışdır!" yadasalması, açıqaydın terror idi.

1968-ci ildə gecənin bir aləmində yatdığı yerdə onun mənzilini partlatmışdılar.

İsrafil müəllim dar hüdudlara sığmayan necə bir məşhur ziyalı idisə və bu qorxunc hadisənin söz-söhbəti yatırılmaq, söndürülmək istənildiyi halda nə təhər qəzəbli və geniş əks-səda doğurmuşdusa, bu barədə Azərbaycanda da danışırdılar.

Mən bu əhvalat barədə hələ ilk tələbəlik illərimdə eşitmişdim və artıq üstündən xeyli keçəndən, bu qəziyyə çoxlarının yadından çıxandan sonra, 1990-cı illərdə özündən soruşdum ki, o məsələ nə məsələ idi, necə oldu salamat qaldınız, bildinizmi bunu kimlər, niyə törətdi?

Dalğınlaşmışdı, demişdi ki, o vaxt, xala-xətrin qalmasın, yalandan bir cinayət işi açdılar, guya sübut elədilər ki, bir cavan oğlan bizim qonşuluqdakı mənzili ailə münaqişəsi üstündə, istədiyi qızın ona verilməməsi səbəbiylə partladıbmış, riyakarcasına elan etdilər ki, sən demə, iş qətiyyən mənlik deyilmiş. Ancaq, əslində, hər şey aşkar idi. Bu, birbaşa mənə qarşı törədilmiş qəsd, ölüm xəbərdarlığı idi.

Partlayış qonşunun mətbəxində baş veribmiş. Həmin mətbəx divarının bu üzündə isə İsrafil müəllimin yataq otağı.

Söhbət o zaman məktəbliymiş, ancaq uşaqlıq yaddaşında həmin dəhşətli günün qorxulu xatirələri dünən baş veribmiş kimi diridir.

Deyir, səhərə yaxın idi, saat 5-6 olardı, yenicə işıqlanırdı. Hamımız yatırdıq. Atam, anam, balaca qardaşım, mən.

Bir onu gördüm ki, otaqlar tüstüduman içindədir. Partlayış elə alınmışdı ki, atamın yatdığı divardan qopan, təqribən, 50-60 kiloqramlıq iri tuf daşı gedib qarşı divara çırpılmışdı.

... O vaxt nədənsə araşdırmanı Daxili İşlər Nazirliyi yox, Dövlət Təhlükəsizlik Komitəsi aparıbmış. Onların özünün törətdiyi idimi bu, ya ASALA, yaxud digər erməni terror təşkilatlarından birinin əməli və ya onlarla bunların müştərək fitnəsi?

Güman min yerə gedir və düşünürəm ki, istəsəydilər, elə edərdilər ki, bu partlayışın gücü bir az da çox olardı, heç ailədən salamat qurtaran olmazdı. Güman ki, irəlicədən niyyət bu imiş ki, partlayış ölümitimlə nəticələnməsin, uzaqbaşı İsrafil müəllim, ya hansısa digər ailə üzvü yaralansın.

Və İsrafil Məmmədovun ağlı başına gəlsin ki, özünü gələcəkdə daha ehtiyatlı aparsın, qırmızı xətti aşmağı fikrindən belə keçirməyə cürət etməsin.

1965-ci ildən etibarən İrəvanda ermənilərə qarşı qondarma soyqırımının 50 illiyi ilk dəfə rəsmi anım mərasimi kimi keçiriləndən sonra hər il 24 aprel ümumerməni hüzn günü kimi qeyd edilməyə, aqressiv millətçilik ildən-ilə şiddətlənməyə üz qoymuşdu.

Bu partlayış müəyyən mənada elə həmin dalğanın təzahürlərindən biri kimi də qavranıla bilər.

Tək bu deyildi ki! O hadisədən əvvəl də, bundan xeyli sonralar da İsrafil müəllimə dəfələrlə hərbə-zorbalar saçan zənglər də olmuşdu, anonim məktublar da göndərilmişdi, gənc oğlunu İrəvanda müalicəsini qəsdən yanlış apararaq elə ölümcül hala salmışdılar ki, onu daha Moskva həkimləri də xilas edə bilməmişdilər.

İsrafil müəllim ömrünün Ermənistanda keçən 62 ilinin dünyanı dərk etdiyi, dostla düşməni yaxşı ayırd etməyə qadir olduğu yarım əsrə yaxın bir iri parçası ərzində ermənilərin azərbaycanlılara qarşı qansızlıqlarının, nifrətinin, əzazilliklərinin elə ürəkdağlayan səhnələrini müşahidə etmişdi ki, o söhbətləri dinlədikcə insanın varlığı silkələnirdi.

Yaxşı ki, sonralar bunların müəyyən hissəsini qələmə aldı, amma nə qədər yandırıcı xatirəsini də özü ilə apardı.

Bizlərə qarşı bu erməni kininin miqyasları və sağalacağına, haçansa bitib-tükənəcəyinə ümid bəsləməyin əbəs olduğu vəhşi qəzəb haqqında qənaətlər İsrafildə yaşa dolandan, bərkdən-boşdan keçəndən, gördüklərini görəndən sonra deyil, uşaqlığından, yeniyetməliyindən hasil olmuşdu.

Onda hələ İsrafil heç dünyaya gəlməyibmiş, 1918-ci ildə anasıgil el-elatla birgə yaylaqdaymış, Njdenin, Dronun qaniçənləri onların üstünə həmlə çəkir.

Mərzə nənə nəvələrinə qorxulu nağıl kimi hekayət edərmiş ki, Mığrı yaylağında- o səfalı, güllü-çiçəkli dağların arasında yamyaşıl, bulaqlı-çeşməli bir dərə varmış. Ora ermənilər amansızlıqla qətlə yetirdikləri o qədər məsum körpənin, ağsaqqalın, ağbirçəyin, ahılın, cavanın cəsədini töküblərmiş ki, camaat həmin yerə Qanlı dərə adı veribmiş...

Həmin sarsıdıcı hadisələr zavallı qadının şüurunda, hisslərində nə təhər dərin, qaysaqbağlamaz yaralar açıbmışsa, onillər sonra da erməni əli dəyən çörəyi, ərzağı yeməzmiş...

İsrafil dükan çörəyi yeməyən anasına kəndlərdə öz azərbaycanlılarımıza vaxtaşırı təndirə çörək yapdırıb gətirərmiş evə...

... Bu da bir ayrı hikmətdir ki, azadlığın hüdudları daraldıqca, ürəyi deşən acıları dilə və qələmə gətirmək çətinləşdikcə sanki beyin daha sürətlə işləməyə başlayır, yox yerdən ağlagəlməz həll üsulları tapır.

1980-ci illərin ortalarında İrəvanda nəşr edilmiş bir sensasion kitabın surətləri bizim Elmlər Akademiyasında əl-əl gəzirdi.

Oxuyanlar müəllifin cəsarətindən daha əvvəl senzura maneəsini adlayaraq bu kitabın Ermənistanda necə nəşr edilməsinə mat qalırdılar.

1985-ci ildə İrəvanda ana dilimizdə buraxılmış "Sovet Ermənistanında Azərbaycan kitabı (1925-1985). Biblioqrafiya" adlı bu kiçikhəcmli əsər, belə məlum olur ki, o vaxt oralarda hay-küysüz, sakit, lap hiss olunmadan qarşılanıbmış.

Oralarda həmin kitaba çaşqın reaksiya Bakıda kitabın doğurduğu coşqun maraqdan sonra yarandı.

İlk baxışdan bu, diqqəti xüsusi cəlb etməməli olan bir soraq, məlumat kitabçası idi.

Yəni XX əsrdə Ermənistanda Azərbaycan dilində hansı kitablar buraxılıb. Uzun bir siyahı, 464 adda kitab: müəllifin adı-soyadı, əsərin sərlövhəsi, nəşriyyat, nəşr ili, həcmi, tirajı və sair bu qəbil informativ səciyyəvi bilgilər.

Rafael Hüseynov,
Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik

Ardı növbəti sayımızda...

# Əsil vətənpərvərlik nümunəsi



"Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" müdrik kəlamı hər yerdə hər zaman öz təsdiqini tapır. Bu bir həqiqətdir ki, hər bir Azərbaycan vətəndaşı bunu görür, şahidi olur, bununla fəxr edir, qürur hissi keçirir. Astara rayonunun ən ucqar dağlıq ərazisində yerləşən sərhəd kəndlərindən biri Dürriyə kəndində anadan olmuş, ömrünün yüz ilini qarşılamağa hazırlaşan Böyük Vətən Müharibəsinin II qrup əlili, müharibə veteranı Əzizov Əli Məmmədhüseyn oğlu bu müdrik ifadənin əsl nümunəsidir. Şübhəsiz ki, şəhid ailələri, müharibə əlilləri və iştirakçıları möhtərəm prezidentimizin daimi, gündəlik qayğısı və diqqəti ilə əhatə olunmuşdur. Bu gün Böyük Vətən Müharibəsinin əlili Əli Əzizovun ailəsinin hədsiz sevincini Dürriyə, Şümrüd və bütövlükdə ətraf kəndlərin əhalisi də yaşayır. Azərbaycan Respublikası Prezidentinin məlum sərəncamına uyğun olaraq Əzizov Əli Məmmədhüseyn oğluna yüz illik yubileyi ərəfəsində minik avtomobili hədiyyə olunmuşdur.

Əli Əzizovla yaşadığı ucqar Talış dağlarının qoynunda yerləşən evində görüşdük, sevincinə şərik olduq, səmimi söhbət etdik.

O, söhbətində dedi, Kamil müəllim nə yaxşı ki gəldiniz. Mənə göstərilən qayğı və diqqətə görə möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdarlıq məktubu yazmışam. Deyəsən işim düzəldi. Yəqin ki, qəlbimdən keçən səmimi təşəkkürü və minnətdarlığı məktub vasitəsi ilə hamımızın sevimlisi, ulu öndərimizin yadigarı İlham Əliyevə çatdırarsınız.

Böyük məmnuniyyətlə xahişinizi yerinə yetirərəm, dedim. Hərçənd keçdiyiniz döyüş yolu haqqında ötən illər ərzində mətbuatda, keçirilən tədbirlərdə çox məlumat verilmişdir. Keşməkeşli həyat yolu, dəhşətli müharibənin ilk illərində iştirakınız barədə xatirələriniz maraqlı olar. Belə ki, ötən əsrin 20-30-cu illəri, - aclıq, səfalət, savadsızlıq dövrü tarixin acı həqiqətləridir. Sonra ailələrə, evlərə fəlakət gətirən amansız müharibə insanlara daha böyük sarsıdıcı zərbə vurdu. Aradan uzun illər keçməsinə baxmayaraq ötən illərin acı xatirəsi yaddaşlarda silinməz izlər buraxmışdır.

- 1941-ci ilin may ayında ordu sıralarına hərbi xidmətə çağrıldım. Ukraynada əsgəri xidmətə başladım. Bir ay keçməmiş, iyun ayının 22-də müharibə başladı. Alman faşistləri ölkəmizə hücum edərək qısa müddətdə Ukraynaya daxil oldular. Mən qolumdan və ayağımdan ağır yaralandım. Yaralıları o cümlədən məni Belorusiyaya, Minsk şəhərindəki hospitala apardılar. Müalicədən sonra hərbi xidmətə yararsız olduğuma görə hərbi zavoda işləməyə göndərildim. 1948-ci ildə tərxis olundum. Uzun illər kəndimizdəki kolxozda təsərrüfat işlərində çalışdım. Yarım əsrdən çox vaxtda kəndimizə sepli traktorlarla və ya piyada getmək olmurdu. Xalqımız müstəqilliyə qovuşduqdan sonra hər sahədə sürətli inkişaf görəndə ürəyimiz dağa dönür.

Rayon icra hakimiyyətinin başçısı cənab Qəzənfər Ağayev kəndimizdə səyyar qəbullar, görüşlər keçirir, kənd camaatı ilə görüşür, səmimi söhbətlər edir. Sosial problemlərin həllində yaxından köməklik göstərir. Başçımızın səyi nəticəsində ən ucqar dağlıq ərazidə yerləşən kəndlərimizdə tikinti-quruculuq, abadlıq işləri geniş vüsət almışdır. Pəlikaş ərazi nümayəndəliyinin kəndləri tikinti meydançasını xatırladır. Dürriyə, Lomin, Dolu kəndlərində modul tipli ibtidai məktəb binalarının tikintisi artıq başa çatmışdır. Diqo, Dolu, Şəvqo Sibyət kəndlərinə avtomobil yolunun, elektrik xətlərinin çəkilişinə başlanılmışdır. Dürriyə və Şümrüd kəndlərinə asfalt yolun çəkilişi, yeni tipli orta məktəb binasının tikintisi planlaşdırılmışdır. Ən sadə kənd adamı da dərk edir ki, bütün bunlar ulu öndərimiz Heydər Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq möhtərəm Prezidentimiz İlham Əliyevin gündəlik gərgin zəhməti sayəsində meydana gələn reallıqdır. Möhtərəm prezidentimizə səmimi hörmət və ehtiramımı bildirməklə fəxr edirəm ki, xalqıma, elimə obama gərək olmuşam. Bu yaşımda mənim kimi neçə-neçə müharibə əlillərinin minik avtomobili ilə mükafatlandırılması gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Onlar bir daha əmin olurlar ki, vətən uğrunda çəkilən zəhmət mütləq qiymətini alır. Buna görə də gənclərimizdə vətənpərvərlik ruhu yüksəkdir. Əminəm ki, onlar vətənin hər bir çağırışına, əmrinə hazırdırlar. Vətənpərvərlik ruhunu yüksək olmasının əsl göz qabağında olan nümunəsi müstəqil respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Əzizov Rüstəm İzzət oğlu, Sovqatov Həzi Şirxan oğlu, Dadaşov Kənan Həsrət oğlunun əziz xatirəsi daim yad edilir. Vətənin müdafiəsinə yola düşən gənclərimiz onların abidəsi önündə and içir. Canları, qanları bahasına vətənin müdafiəsində əsil sədaqət nümunəsi olacaqlarını, şəhidlərimizin qanını yerdə qoymayacaqlarını bildirirlər.

Aprel döyüşlərində hamımız bunun şahidi olduq. İnanıram ki, növbəti döyüş torpaqlarımızın düşmən tapdağından, işğalından azad edilməsi ilə tamamlanacaq. Mən bir qocaman müharibə əlili və veteranı kimi arxayınam ki, vətən sevgisi, vətənin müdafiəsi etibarlı vətənpərvər gənclərimizə əmanət edilir. Bu son dərəcə məsuliyyətli və şərəfli işdə onlara uğurlar arzulayıram.

Əziz gənclərimiz sizə əmanət olan ana Vətənimizin keşiyində möhkəm dayanın, onun çağırışına heç vaxt gecikməyin!

***Söhbəti qələmə aldı Kamil Kamilov.***
***ehtiyatda olan zabit,***
***Astara rayonu***



## Qəhrəman Veteranlar unudulmayacaq....

1985-ci ildə Qobustan rayonunun Cəmcəmli kəndində Müharibənin 40 illiyi ilə əlaqədar İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə abidə ucaldıldı. Foto həmin tarixdə çəkilib. Yəni 1985-ci il may.

Abidənin önündə çəkilmiş şəkildəkilər müharibənin veteranlarıdır.

Soldan sağa;

1. Bayramov Sarvan Zümürxan oğlu - 1941-ci ilin iyulunda orduya çağrılıb, 325-ci alayın tərkibində döyüşüb. 1945-ci ilin dekabrında ordudan tərxis edilib. 1987-ci ildə vəfat edib.

2. Əhmədov Nurəhməd Güləhməd oğlu-1942-ci ildə orduya çağrılıb, əvvəlcə 150-ci atıcı alayında, sonra isə 73-cü sərhəd atıcı alayında döyüşüb. 1946-cı ildə ehtiyata buraxılıb. Müəllim işləyib. 1993-cü ildə vəfat edib.

3. Soltanov İmanverdi Qəhrəman oğlu - 1942-ci ildə orduya çağrılıb. 782-ci rabitə batalyonunda xidmət edib. 1946-cı ildə vətənə dönüb. 1989-cu ildə vəfat edib. Kənddə briqadir işləyib.

4. Şıxaliyev Şaməddin Ağahacı oğlu- 1942-ci ildə orduya çağrılıb. 106-cı atıcı alayında xidmət edib. 1945-ci ildə ehtiyata buraxılıb. 1993-cü ildə vəfat edib. Kənddə briqadir işləyib.

5. Yolçuyev Gülmərdan Barat oğlu-1941-ci ildə orduya çağrılıb. Ukrayna cəbhəsinin 51-ci ordusunun 223-cü diviziyasında xidmət edib. Ağır döyüşlərin birində yaralanmış və 1944-cü ildə vəfat edib. Uzun müddət müəllim işləmişdir.

***Məhəmməd Bayramov***
***Qobustan rayonu, Cəmcəmli kəndi***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

### Allah rəhmət eləsin

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti Masallı Rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyevin qardaşı *Abuzər Niftiyevin* vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə baş sağlığı verir.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**
**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33IBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012** 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 1 manat 20 qəpik*
*Tiraj: 1250*